# Hacıqabul: Tərəqqiyə gedən yol

***Hacıqabul gözdən-könüldən iraq deyil, Bakıdan Cənub və Şərq istiqamətinə gedənlərin də, paytaxtımıza gələnlərin də yolu buradan keçir. Bir sözlə, Hacıqabul strateji əhəmiyyətə malik bir rayondur. Bu isə onu tələb edir ki, burada gərək hər şey öz axarında olsun- yolu asfalt, qazı, işığı, suyu daimi, evləri yaraşıqlı, "torpağı əkin-biçinlə sığallanmış" vəziyyətdə olsun. İnsaf xatirinə demək lazımdır ki, son illər vəziyyətin məhz elə bu cür olması üçün rayonda irili-xırdalı xeyli iş görülmüşdür.***



Yəqin ki, yolu buradan keçən hər kəs görür və qəlbən duyur ki, bu deyilənlər mübaliğə, şişirtmə deyil, gerçəklikdir. Əlbəttə, vurğulandığı kimi, Hacıqabul göz qabağında olduğundan insanlar təbii olaraq bundan daha artığını görmək istəyirlər.

Son illər Hacıqabulda baş vermiş əsaslı dəyişiklikləri görməmək isə, ən azı, insafsızlıqdır. Elə geniş və asfalt yollar, uşaq əyləncə mərkəzi ilə təmin olunmuş yaraşıqlı park və xiyabanlar, görünüşü ilə, necə deyərlər, göz qamaşdıran, hətta iri şəhərlərdəkindən də daha möhtəşəm məktəblər və uşaq bağçaları, eləcə də digər sosial obyektlər məhz son on illikdə hacıqabulluların ixtiyarına verilib və onlar da bu şəraitdən istədikləri qədər bəhrələnə bilirlər.



Hacıqabul rayonu 2015-ci ili də əsasən müsbət göstəricilərlə yola salıb. Bütün sahələrdə uğurlu nəticələr əldə olunub.Rayon üzrə iqtisadiyyatın bütün sahələrində məhsul buraxılışının həcmi 220 milyon manata yaxın olmuş, məhsul buraxılışında qeyri-dövlət sektorunun payı 2014-cü ilə nisbətən 0,8 faiz artaraq 66,6 faiz təşkil etmişdir.

Yollar qovşağında yerləşən Hacıqabul həm də kənd rayonudur, yəni burada əhali əsasən əkin- biçinlə məşğuldur. Statistik rəqəmlər də göstərir ki, bu sahədə müəyyən irəliləyiş var. 2014-cü illə müqayisədə 330 hektar çox olmaqla 12869 hektarda taxıl əkilmişdir. Yenə əvvəlki illə müqayisədə zəmilərdən 6559 tondan çox- 43.981 ton taxıl (24735 ton buğda, 19246 tonu arpa) yığılmışdır. Hər hektardan məhsuldarlıq 34,2 sentner olmuşdur. Sahələrdən 23306 ton bostan, 20156 ton tərəvəz məhsulu, 165 ton qarğıdalı, 67 ton günəbaxan, 428 ton kartof, 11057 ton meyvə, 264 ton üzüm istehsal olunmuşdur.

2015-ci ildə 9498 ton ət istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 24 ton artıqdır. Yumurta istehsalı 4,1 milyon ədəd artaraq 331 milyon 199 min ədəd, süd istehsalı 45 ton artaraq 17217 ton, yun istehsalı isə 1 ton artaraq 225 ton təşkil etmişdir. Rayonun torpaq mülkiyyətçilərinə 70 faiz güzəştlə 100 ton mineral gübrə satılmışdır. 562 nəfər buğda istehsalçısına 128 min 602 manat, eyni zamanda, 2041 nəfər mülkiyyətçiyə əkin sahələrinin becərilməsinə görə hər hektara 50 manat olmaqla 682 min 415 manat məbləğində subsidiya verilmişdir.

Hacıqabul isti ərazidə yerləşir və belə demək mümkünsə, yaşıllıq sarıdan korluq çəkir. Atılan addımlar nəticəsində bu istiqamətdə də vəziyyət yaxşılığa doğru dəyişməkdədir. Təkcə bir faktı qeyd edim ki, il ərzində Hacıqabul şəhərinin yaşıllaşdırılması məqsədilə 15 min ağac və 10 mindən artıq gül bitkisi əkilmişdir.

Uşaqdan-böyüyə hamıya məlumdur ki, qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının inkişafı bu gün dövlət başçısı İlham Əliyev tərəfindən əsas məqamlardan biri kimi xüsusi diqqət mərkəzində saxlanılır. Hacıqabulda da bu barədə ciddi götür-qoy edilir, nəticələr əsaslı şəkildə təhlil olunur, atılacaq addımlar dəqiq müəyyənləşdirilir ki, sabah hansısa yanlışlıqla üzləşilməsin. Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov bu barədə maraqlı fikirlərini bölüşdü. O bildirdi ki, rayonda daha səmərəli kənd təsərrüfatı məhsullarının əkilməsi istiqamətində də müəyyən tədbirlərin həyata keçirilməsi üçün imkanlar araşdırılır. Hacıqabulda hər növ kənd təsərrüfatı bitkisinin, o cümlədən pambığın əkilib becərilməsi üçün böyük imkanlar vardır. Bu məhsulun becərilməsi dövlət əhəmiyyətli olduğu qədər də sahibkarlıq fəaliyyəti üçün də faydalıdır. Yerli mütəxəssislərin hesablamaları göstərir kl, 5-10 hektar və daha artıq sahədə pambığın normal becərilməsi mülkiyyətçiyə kifayət qədər yaxşı qazanc imkanı yaradır.



Digər bir məsələyə toxunan rayon rəhbəri qeyd etdi ki, yerli şəraitə uyğun əlverişli bitkilərdən biri də şəkər çuğundurudur. Hər hektardan 800-1000 sentnerə qədər şəkər çuğunduru əldə etmək mümkündür. Şəkər çuğundurunun becərilməsi üçün bütün xərcləri də İmişli Şəkər Zavodu müqavilə əsasında öz öhdəsinə götürür. Nəticədə də məhsul istehsalçıları yüksək gəlir əldə edirlər. İcra hakimiyyətinin başçısı xüsusi vurğuladı ki, Hacıqabul rayonunda şəkər çuğundurunun becərilməsi mülkiyyətçilər üçün arzuolunandır.

Torpaqların münbitliyinin artmasında düzgün suvarma mühüm əhəmiyyət daşıyır. 2007-ci ildə tikintisinə başlanılmış 53,95 kilometrlik Hacıqabul magistral kanalında işlər də davam etdirilmişdir. Sututumu saniyədə 6 kubmetr olan kanalın 28,2 kilometrinin tikintisi tam başa çatdırılaraq istifadəyə verilmişdir. Padar- Qarasu ərazilərində 2 min hektara yaxın həyətyanı və əkin sahəsini, həmçinin 1625 hektarlıq iri özəl taxılçılıq təsərrüfatını suvarma suyu ilə təmin edən kanalın tikintisinin tam şəkildə başa çatdırılması Padar, Qarasu, Muğan ərazisində əkinəyararlı 5560 hektarda kompleks meliorasiya işlərinin aparılmasına imkan yaradacaqdır.

Hazırda Hacıqabulda 14784 hektar torpaq sahəsi 655,1 kilometr uzunluğunda kanallar vasitəsi ilə suvarılır. Məlumat üçün qeyd edim ki, 2015-ci ildə 495 kilometrdən artıq kanal lildən təmizlənmişdir.

Ötən il Hacıqabul rayonunda 2014-cü illə müqayisədə 152,1 min manat çox olmaqla 4 milyon 117,9 min manatlıq sənaye məhsulu istehsal edilmişdir. İl ərzində adambaşına pullu xidmətin həcmi 359,4 manat olmaqla əhaliyə 26 milyon manatdan çox pullu xidmət göstərilmişdir. Həmçinin əhaliyə 3 milyon 21 min manatlıq nəqliyyat, 588,9 min manatlıq rabitə xidmətləri göstərilmiş, 2014-cü ilə nisbətən poçt və rabitə xidmətlərinin həcmi 11,9 faiz artmışdır.

Ötən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə şəhərdə 2 mərtəbəli 100 yerlik uşaq bağçası, Mühafizə Xidməti və Paylayıcı Elektrik idarəsi üçün müasir tipli inzibati binalar tikilib istifadəyə verilmişdir. Bir neçə küçəyə qum-çınqıl qarışığından hamarlayıcı qat verilmiş, asfalt-beton qarışığından örtük çəkilmiş, Dəmiryolu vağzalı meydanına və H.Həmidov küçəsinə iri dənəli asfalt-beton qarışığından hamarlayıcı qat verilmişdir. İki küçədə müasir işıqlandırma dirəkləri qoyulmuşdur. "Hərbi şəhərcik" adlanan ərazidəki 2 mərtəbəli yaşayış binalarının əraziləri abadlaşdırılmış, iki bina əsaslı təmir olunmuşdur.



Qəsəbə və kəndlərdə də əsaslı təmir və yenidənqurma işləri görülmüşdür. Rəncbər, Abdulabad, Navahı, Talış, Qubalıbalaoğlan, Ələtli, Meyniman, Qarasu, Qızılburun kəndlərində və Muğan qəsəbəsində açıq tipli su ötürücü kanallar qazılmışdır. Kənd yollarına qum-çınqıl verilmiş, yararsız içməli su və elektrik xətləri yenisi ilə əvəz olunmuşdur. Navahı qəsəbəsində 2,7 kilometr yola çınqıl döşənərək yararlı hala salınmışdır. Hazırda ərazidə elektrik təsərrüfatının SİB kabelə keçilməsi və yeni transformatorların quraşdırılması işləri davam etdirilir. 2015-ci ildə dövlət dəstəyi ilə Navahı qəsəbəsində yaşayan Axıska türkləri üçün 17, Meyniman kəndində isə 15 fərdi ev tikilmişdir.

Hacıqabulda məskunlaşmış məcburi köçkün və qaçqın ailələri diqqət mərkəzində saxlayan rayon icra hakimiyyəti onların problemlərinin həlli istiqamətində mümkün tədbirlər həyata keçirmişdir.

2015-ci ildə icra hakimiyyətinin xətti ilə rayonda tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyalar 3 milyon 754 min 700 manat təşkil etmişdir.

Əhalinin təbii qaz və elektrik enerjisi ilə etibarlı təminatı da 2015-ci ildə ön planda olmuşdur. Müxtəlif güclü transformator və onlarca yağ açarları təmir olunmuş, elektrik dayaqları dəyişdirilmişdir. Bütün yaşayış məntəqələri qazlaşdırılmış və mənzillərə "smart" tipli sayğaclar qoyulmuşdur. Şəhər sakinləri daimi içməli su ilə təmin olunmuşdur.

Təhsil müəssisələrində istedadlı gənclərlə məqsədyönlü iş aparılmış, istedadlı və qabiliyyətli məktəblilər üzə çıxarılmış, şagirdlər arasında müxtəlif fənlər üzrə bilik yarışları və sərbəst olimpiadalar keçirilmişdir. İyun ayında Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən Hacıqabul məktəblərinin IX və XI siniflərində mərkəzləşmiş buraxılış imtahanları təşkil edilmişdir. 2015-ci ildə 119 nəfər ali məktəblərə, 32 nəfər orta ixtisas məktəblərinə qəbul olmuşdur. "Əməkdar müəllim", şəhər 1 saylı tam orta məktəbin biologiya müəllimi Səbinə Rəsulova ölkə başçısı İlham Əliyevin sərəncamına əsasən ikinci dəfə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuş və 5000 manat pul mükafatı almışdır.

Məlumdur ki, son illər Prezident İlham Əliyevin tapşırığı ilə 17 yaşdan yuxarı ölkə vətəndaşları kütləvi şəkildə tibbi müayinəyə cəlb olunurlar. Ötən il 70 mindən çox əhalisi olan Hacıqabul rayonunda 50137 nəfər tibbi müayinələrdən keçmiş, xəstəlik aşkar edilmiş 4611 nəfər rayon mərkəzi xəstəxanasında və respublikanın müxtəlif tibb müəssisələrində müayinə olunmuşlar. İl ərzində rayonda 1098 doğuş qeydə alınmış, ana ölümü olmamışdır. Həmçinin mərkəzi xəstəxanada qanvermə aksiyası keçirilmişdir. Uşaq tibb mərkəzi istilik sistemi ilə təmin olunmuş, xəstəxananın həyətinə 500-dən artıq ağac və 1000 ədəd müxtəlif gül kolu əkilmişdir.

İl ərzində rayonun mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər həyata keçirilmişdir. Oxucuların kitabxanalardan səmərəli şəkildə istifadə etmələri üçün lazımı səy göstərilir. Kitabla xidmət işini yüksək səviyyədə təmin etmək məqsədilə şəraiti əlverişsiz olan kitabxanalar təmir edilmiş və müasir inventarlarla təmin olunmuşdur.

Əhalinin həyat səviyyəsinin göstəricisi olan orta aylıq əmək haqqı artaraq əvvəlki illə müqayisədə 290 manat olmuşdur. 474-ü daimi olmaqla il ərzində 632 yeni iş yeri açılmışdır.

2015-ci ildə rayon icra hakimiyyəti 602 nəfərə 68,145 manatlıq maddi yardım göstərmiş, Qurban bayramı münasibətilə şəhərin imkansız, tənha, əlil və şəhid ailələrinə qurban əti paylanılmışdır.

Vətəndaşların qəbuluna da ciddi yanaşılmışdır. 2015-ci ildə rayon rəhbərliyi tərəfindən 983 vətəndaş qəbul edilmiş, onların müraciətlərinin əksəriyyəti yerində həllini tapmış, qalanları isə icraata götürülərək qanuna uyğun şəkildə həll olunmuşdur.

Artıq 2016-cı ilin iki ayı tarixə qovuşub. 2015-ci ildə həyata keçirilmiş genişmiqyaslı tədbirlərin davamı olaraq bu il də zəhmətsevər hacıqabulluların rifahını yaxşılaşdıran bir sıra mühüm işlərin gerçəkləşməsi şübhə doğurmur. Torpağa bağlı bu insanların işgüzarlığı, əzmi və qətiyyəti bunu söyləməyə əsas verir.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***